Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
"07" mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ**

**MALİYYƏ SEKTORUNUN DAYANIQLI İNKİŞAFI DEPARTAMENTİ HAQQINDA**

# Ə S A S N A M Ə

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə sektorunun dayanıqlı inkişafı departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi ölkədə maliyyə sektorunun dayanıqlı inkişafı, maliyyə vasitəçiliyinin genişlənməsi, dərinləşməsi və effektivliyinin artırılması, həmçinin dayanıqlı maliyyə prinsiplərinin maliyyə qərarlarının qəbul edilməsi prosesinə inteqrasiyasına yönəlmiş inkişaf siyasətini müəyyən etməkdən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. Mərkəzi Bankın maliyyə sektorunun dayanıqlı inkişafı siyasəti və strategiyalarının formalaşdırılması və icrasının təmin edilməsi;

3.2. maliyyə vasitəçiliyinin dərinliyi və əhatə dairəsininin genişləndirilməsi, əhali və real sektorun ehtiyaclarına fokuslaşmış çeşidli maliyyə məhsul və xidmətlərinin təqdim edilməsi üzrə zəruri ekosistemin formalaşdırılması;

3.3. inkişaf məqsədləri çərçivəsində maliyyə sektorunun rəqəmsallaşması və innovativ maliyyə xidmətlərinin tətbiqi siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi;

3.4. maliyyə sektorunda inkişaf tendensiyalarının təhlili, inkişafı ləngidən amillərin müəyyən edilməsi və onların aradan qaldırılması təkliflərin formalaşdırılması;

3.5. maliyyə sektorunun dayanıqlı və yaşıl maliyyəyə transformasiyası, maliyyə institututlarının iqlim dəyişmələri və digər ətraf mühit/ekoloji risklərə qarşı dayanıqlığının təmin edilməsi üzrə Azərbaycan Respublikası Mərkəzi Bankının siyasətinin formalaşdırılması və həyata keçirilməsi məqsədilə təkliflərin təqdim edilməsi;

3.6. səlahiyyətləri daxilində xarici tənzimləyicilər, beynəlxalq təşkilatlar, maliyyə institutları və digər müvafiq maraqlı tərəflərlə əməkdaşlıq edilməsi;

3.7. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.8. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.9. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən və bölmədən ibarətdir:

4.1.1. Maliyyə sektorunun inkişafı şöbəsi;

4.1.2. Maliyyə inklüzivliyi bölməsi;

4.1.3. Dayanıqlı maliyyə şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Maliyyə sektorunun inkişafı şöbəsi:**

5.1.1. maliyyə sektorunun bütün seqmentləri üzrə inkişaf tendensiyalarına dair müxtəlif diaqnostik qiymətləndirmələr və təhlillər aparır, inkişafı ləngidən amillərin aradan qaldırılmasına dair müvafiq təkliflər hazırlayır;

5.1.2. maliyyə sektorunun inkişaf prioritetləri üzrə beynəlxalq təcrübəni öyrənir, ölkənin milli inkişaf prioritetləri nəzərə alınmaqla müxtəlif tematikalarda məqbul modellərin və mexanizmləri tədqiq edir və onların ölkədə tətbiqinə dair təkliflər verir;

5.1.3. maliyyə sektorunda rəqəmsal maliyyə xidmətlərinin tətbiqi üzrə təşviq mexanizmlərinə dair təkliflər hazırlayır və siyasət təşəbbüslərinin hazırlanmasında iştirak edir;

5.1.4. islam maliyyəsinin tətbiqi və genişləndirilməsi üzrə qabaqcıl beynəlxalq

təcrübəni öyrənir və müvafiq siyasət tədbirlərini müəyyənləşdirir;

5.1.5. alternativ maliyyə xidmətləri kanallarına çıxışın gücləndirilməsi üzrə cari vəziyyəti təhlil edir və təkmilləşmə istiqamətləri üzrə təkliflər verir;

5.1.6. aktiv əsaslı maliyyələşmənin inkişafı istiqamətində təhlillər aparır və müvafiq infrastrukturun inkişafı fəaliyyətini həyata keçirir;

5.1.7. yerli kredit reytinqi mexanizmi və müvafiq ekosistemin formalaşdırılması üzrə təhlillər aparır və təkliflər verir;

5.1.8. mikromaliyyə sektoru üzrə ekosistemin təkmilləşdirilməsi istiqamətində qabaqcıl təcrübələri öyrənir və siyasət təklifləri hazırlayır;

5.1.9. şöbənin əsas icraçı olduğu işçi qruplarının fəaliyyət istiqamətlərinə uyğun olaraq işləri yerinə yetirir;

5.1.10. maliyyə sektorunun inkişaf məsələləri ilə bağlı beynəlxalq təşkilatlar və yerli qurumlar tərəfindən daxil olan sorğuların cavablandırılmasını təmin edir;

5.1.11. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Maliyyə inklüzivliyi bölməsi:**

5.2.1. Mərkəzi Bankın maliyyə inklüzivliyi təşəbbüslərini həyata keçirir və struktur bölmələr arasında maliyyə inklüzivliyi fəaliyyətlərini əlaqələndirir;

5.2.2. maliyyə inklüzivliyi siyasətləri üzrə qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi və təkmil siyasətlərin tətbiqini beynəlxalq standart müəyyən edən qurumlarla əlaqələndirir;

5.2.3. inklüziv maliyyə sahəsində mövcud problemlər və perspektivləri aşkarlamaq məqsədilə mütəmadi diaqnostik təhlillər aparır və nəticələri əsasında siyasət tədbirləri müəyyənləşdirir;

5.2.4. maliyyə sektoruna dair normayaratma təşəbbüslərinin maliyyə inklüzivliyinə təsirini qiymətləndirir və müvafiq təkliflər formalaşdırır;

5.2.5. maliyyə inklüzivliyini dəstəkləmək məqsədilə ictimai kommunikasiya və təşviqat işlərində iştirak edir;

5.2.6. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Dayanıqlı maliyyə şöbəsi**

5.3.1. maliyyə sektorunda dayanıqlı maliyyələşməyə keçidin dəstəklənməsi məqsədilə siyasət təklifləri formalaşdırır;

5.3.2. maliyyə institutlarının iqlim dəyişmələri və ESİ (ekoloji, sosial və idarəetmə) risklərinin idarə edilməsi və fürsətlərinin qiymətləndirilməsi üzrə potensialının artırılması üzrə tədbirlər görür;

5.3.3. maliyyə institutlarının fəaliyyətinə ESİ prinsiplərinin inteqrasiyasını təmin edir;

5.3.4. iqlim dəyişmələri və ESİ risklər nəticəsində yarana biləcək maliyyə sabitliyi risklərinin idarə edilməsi məqsədilə makroprudensial alətlərin tətbiqini qiymətləndirir və müvafiq hallarda təkliflər formalaşdırır;

5.3.5. dayanıqlı maliyyələşmənin təmin edilməsi məqsədilə ekosistemin formalaşdırılması üçün tənzimləyici çərçivəyə təkliflər formalaşdırır;

5.3.6. iqlim və digər ətraf mühit dəyişikliyindən yaranan risklərin maliyyə institutlarına nəzarət çərçivəsinə inteqrasiya edilməsi üçün təkliflər verir;

5.3.7. maliyyə sektorunda iqlim dəyişmələri və ESİ riskləri üzrə məlumat bazasının formalaşdırılmasını təmin edir;

5.3.8. maliyyə bazarlarının sabitliyinə və dayanıqlığına təsir edə biləcək iqlim dəyişmələri risklərinin və təsirlərinin müəyyən edilməsində və qiymətləndirilməsində iştirak edir;

5.3.9. maliyyə bazarlarının iqlim riskləri üzrə ssenari analizlərinin hazırlanmasında, stress testlərin aparılmasında və onların metodologiyasının formalaşdırılmasında iştirak edir;

5.3.10. iqlim dəyişmələri və ESİ amilləri üzrə maliyyə sektorunda dövri hesabatlığı təmin edir;

5.3.11. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**